AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**LALƏ QURBAN qızı QURBANOVA**

# YENİDƏNHAZIRLANMA TƏHSİLİNİN MODERNLƏŞDİRİLMƏSİNİN PEDAQOJİ KADR HAZIRLIĞINA TƏSİRİ

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin (Azərbaycan Müəllimlər İnstitutunun) Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İntiqam Hilal oğlu Cəbrayılov**
*pedaqogika üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*

**Vidadi Paşa oğlu Bəşirov**
*pedaqogika üzrə fəlsəfə doktoru,dosent*

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin Pedaqogika kafedrası

Dissertasiyanın müdafiəsi "6" fevral 2018-ci il tarixdə saat $16^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya işi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat " ___" _________ 2017-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:** **dosent R.Z.Hümbətəliyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı.** Müasir dövrdə ölkəmizdə gedən inkişaf prosesləri təhsilin bütün pillələrinin təkmilləşdirilməsini, müəllim hazırlığı milli zəmində və eyni zamanda ümumbəşəri dəyərləri nəzərə almaqla müasirləşdirməsini tələb edir.

Ulu öndər H.Ə.Əliyevin 1999-cu il 15 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"ndan irəli gələn məsələlərin həlli təhsilin idarə olunmasında yeni prinsiplərin bərqərar olunması, təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılması, pedaqoji kadrların hazırlanması və təhsil siteminin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoydu[1].

Ümummilli lider Heydər Əliyev müəllim əməyini yüksək qiymətləndirərək onları daim öz biliklərini artırmağa çağırırdı. Ulu öndər 2000-ci il sentyabr ayının 1-də yeni dərs ilinin başlanması münasibəti ilə Bakının Nərimanov rayonunun 82 nömrəli məktəbində keçirilən "Bilik günü" toplantısında etdiyi tarixi nitqində demişdir: "Müəllimlər gərək yerlərində saymasınlar, nə qədər təcrübəli olsalar da, daim öz biliklərini artırsınlar. Çünki dünya çox dinamik inkişafdadır. Bu dinamik inkişaf dünyada sürətlə yeniliklər meydana çıxarır. Ona görə də təbiidir ki, müəllim 10-15-20 il bundan öncəki səviyyəsi ilə bizim bugünkü təhsilimizi təmin edə bilməz. Gərək müəllim öz üzərində daim işləsin, dünyanın elmi-texniki tərəqqi nailiyyətlərindən xəbərdar olsun və onları tələbələrə, gənclərə, uşaqlara çatdırsın".[2]

Azərbaycan təhsilinin əsas istiqamətlərindən biri müəllim hazırlığı ilə əlaqədardır. Müəllim hazırlığı üzrə aparılan işlər Azərbaycan Respublikasında bu sahənin müasir tələblərə cavab verən səviyyəyə qaldırılması, daha keyfiyyətli və yaradıcı işləmək qabiliyyətinə malik olan pedaqoji kadrların hazırlanması, yenidən hazırlanması, ixtisasının artırılması və bu hazırlığın müasirləşdirilməsi, beynəlxalq təcrübə və milli ənənələr əsasında məzmunun, strukturun, pedaqoji təhsil müəssisələrində bütün pedaqoji proseslərin daha da təkmilləşdirilməsi və optimallaşdırılması məsələlərini əhatə edir.

Zamanın tələbinə uyğun olaraq əlavə təhsil sisteminin sosial sferadan bazar iqtisadiyyatı sektoruna qanunauyğun keçməsi bu sahənin modern-

---

[1] Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. // Təhsil xəbərləri. 2009, № 4, səh.5-40

[2] H.Ə.Əliyev. "Təhsil millətin gələcəyidir". Bakı: Təhsil, 2002, səh.513

ləşdirilməsinə konseptual yanaşmaların bir daha ətraflı baxılmasını tələb edir. Bu baxımdan ixtisasartırma və yenidənhazırlanma təhsilinin rolunun artırılması, bu istiqamətdə məzmun və təşkilati mexanizmlərin yeni tələbata uyğun həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Təhsil Nazırliyinin tabeliyində olan 23 əlavə təhsil müəssisəsi və struktur qurumlarından 18-i pedaqoji kadrların yenidən hazırlanması təhsili ilə məşğul olur. Bu şəbəkədə Azərbaycan Müəllimlər İnstitutu, Naxçıvan Müəllimlər İnstitutu, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu, Azərbaycan Dövlət Neft Akademiyası nəzdində Əlavə təhsil İnstitutu, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti nəzdində Əlavə təhsil mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Lənkəran Dövlət Universiteti nəzdində ixtisasartırma və yenidənhazırlanma fakültəsi fəaliyyət göstərir.

Tədqiqat yalnız yenidənhazırlanma təhsilinin nəzəri və praktik məsələlərini deyil, həm də dövlətin təhsil siyasətinin həyata keçirilməsi ilə bağlı olduğu üçün tədqiqat işində bu sahədə verilən dövlət fərmanları və sərəncamları da öz əksini tapmışdır.

Fasiləsiz təhsilin vacib komponenti hesab olunan əlavə təhsilin müasir tələblər səviyyəsində həyata keçirilməsi istiqamətləri, icra mexanizmləri və perspektivləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007–ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası"[1]sənədində öz əksini tapmışdır. Bu sənəddə göstərilir ki, müasir dövrdə müəllim əxlaqi cəhətdən inkişaf etmiş yaradıcı şəxsiyyət, refleksiya qabiliyyətinə, peşə vərdişlərinə, pedaqoji ustalığa malik olmalı və daim yenilikçiliyə meyil etməlidir. Müəllim təhsilin əhəmiyyətini dərk etməli, mədəni olmalı, öz fənnini, pedaqogika və psixologiyanı gözəl bilməli, şəxsiyyətyönümlü pedaqoji üsullardan istifadə etməli, öz intellektual səviyyəsini daim inkişaf etdirmək üçün çalışmalıdır. Müəllim yenilikçi yaradıcı düşüncəyə malik olmalıdır. Pedaqoji fəaliyyətin yaradıcı istiqamətlənməsi müəllimdən aşağıdakıları tələb edir:

- öz imkanlarını obyektiv qiymətləndirmək, öz sənəti üçün əhəmiyyətli olan zəif və güclü cəhətlərini müəyyən edə bilmək ( özünüidarə, özünüqiymətləndirmə, emosionallıq, kommunikativ, didaktik qabiliyyətlər və s.);

---

[1]Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007–ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası". http://edu.gov.az/upload/file/fasilesiz-pedoqoji-kensepsiya-ve-strategiya.pdf

- intellektual fəaliyyət (düşüncə, yaddaş, qavrama, təsvir, diqqət) mədəniyyətinə, davranış mədəniyyətinə, ünsiyyət mədəniyyətinə, o cümlədən pedaqoji mədəniyyətə malik olmaq;

- inteqrasiya proseslərinə, dünya təhsil məkanının inkişaf tendensiyasına uyğunlaşa bilmək.

Bu konsepsiyanın yaradılmasının zəruri səbəbləri aşağıdakı amillərlə əlaqədardır:

- müasir dünyada və uyğun olaraq respublikada baş verən müvafiq dəyişikliklər;

- müasir dövrdə müəllimin peşəkarlığına və fəaliyyətinə verilən tələblər;

- Azərbaycanda fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində mövcud vəziyyətin təhlili zamanı aşkar edilən problemlər və nöqsanlar.

Sözügedən konsepsiyanın əsas məqsədi Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq müəllimin fasiləsiz hazırlığı sisteminin əsas istiqamətlərinin, məzmununun və inkişafının müəyyən edilməsindən, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının inkişaf etdirilməsi üçün hüquqi, iqtisadi və təşkilati şəraitin yaradılmasından ibarətdir.

Son illər respublikamızda təhsil sisteminin inkişaf dinamikasının təhlili göstərmişdir ki, Azərbaycanda təhsil sisteminin modernləşdirilməsi məqsədi ilə bir sıra işlər görülmüşdür: bu müddət ərzində təhsil sisteminin bütün pillələrində struktur islahatlar aparılmış, təlimin məzmunu dəyişmiş, müasir tələblərə cavab verən təhsil standartları, proqram və dərsliklər hazırlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur[1]. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri özündə ehtiva edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İ.H. Əliyevin 14 dekabr 2013-cü ildə keçirilən Müəllimlərin XIV qurultayına təbrik məktubunda

---

[1] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi", 2013, 25 oktyabr, № 41

qeyd olunur: “Dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin və mənəviyyatımızın kökündə dayanan müəllim daim cəmiyyətimizdə hörmət və ehtiramla əhatə olunmuşdur. Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur“[1].

Hazırda təlim prosesinin qarşısında duran əsas vəzifə müstəqil və yaradıcı düşüncə tərzinə malik rəqabətədözümlü, təşəbbüskar vətəndaşlar yetişdirməkdir. Gələcək cəmiyyətin necə olması məhz indi yetişdirdiyimiz kadrlarla müəyyənləşir. Bakalavr səviyyəsində gələcək müəllimlərdə peşə keyfiyyətlərinin formalaşdırılması müəllim hazırlığının əsas tərkib hissəsi olmaqla bərabər, müəllimlərin yenidən hazırlanması və pedaqoji işçilərin ixtisasının artırılması problemini həll etmədən ümumi təhsil sistemini modernləşdirmək, müasir tələblərə cavab verən müəllim hazırlığını təmin etmək, onu inkişaf edən cəmiyyətin tələbləri səviyyəsinə qaldırmaq mümkün olmaz. Bu baxımdan müəllimlərin yenidən hazırlanması üzrə strukturun, məzmunun və təşkilati mexanizmlərin yeni tələblərə uyğun həyata keçirilməsi məsələləri meydana çıxır.

Hal-hazırda müəllimlərin yenidən hazırlanması inkişaf edən təhsilin yeni reallıqları ilə ziddiyyət təşkil edir və bunun da nəticəsində bir sıra problemlər yaranır. Bizim apardığımız tədqiqat göstərir ki, kadrların yenidən hazırlanması ilə məşğul olan müəssisələr bu zəruri və qlobal məsələnin həllini bütünlüklə yerinə yetirməkdə bir sıra çətinliklərlə üzləşirlər. Bunlar aşağıdakılardır:

- ümumi təhsildə baş verən dəyişikliklər, adekvat mexanizmlərin və çevik reaksiyanın olmaması;
- təhsilin məzmununun tədrisində ənənəvi metod və formaların üstünlük təşkil etməsi və bunun inkişafda olan peşəkar fəaliyyətin vəzifələrinin həllinə mane olması;
- təhsil sistemində pedaqoqların və rəhbər işçilərin – təcrübəçilərin təhsil liderləri kimi kadr hazırlığı səviyyəsinin yüksəldilməsi üçün innovativ potensialdan səmərəli istifadə etməsi üçün mexanizmin olmaması;
- müəllimlərin yenidən hazırlanmasının dövlət tərəfindən təmin edilən hüquqi mexanizminin olmaması;
- texnoloji imkanların müxtəlif cür qiymətləndirilməsi;
- təcrübi və nəzəri tədqiqatların inteqrasiyası;
- informasiyanın artması və cəmiyyətin tələbinin dinamik dəyişməsi

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan müəllimlərinin XIV qurultayının iştirakçılarına təbrik məktubu. “Azərbaycan müəllimi” qəzeti, 2013, 20 dekabr, № 49

şəraitində innovasiya proseslərinin dəyişkənliyi.

Müəllimin şəxsiyyəti, nüfuzu və peşə keyfiyyətlərinin xüsusiyyətləri, bu xüsusiyyətlərin zəruriliyi bütün dövrlərdə görkəmli mütəfəkkirlər, pedaqoqlar, maarifçilər tərəfindən xüsusi olaraq qeyd edilmişdir. Bu baxımdan Azərbaycan xalqının böyük mütəfəkkirləri N.Gəncəvi, T.Tusi, M.Füzuli dəyərli fikir və ideyaları bu gün üçün də əhəmiyyətlidir.

XIX-XX əsr Azərbaycan maarifçi pedaqoqlarından S.M.Qənizadə, F.Ağazadə, F.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, Ü.Hacıbəyov və onlarca başqaları da qiymətli fikirlər söyləmiş və bu sahədə mühüm xidmətlər göstərmişlər.

Qeyd etmək lazımdır ki, müasir müəllimlərin hazırlanması və peşəkarlığının inkişaf etdirilməsinin müxtəlif istiqamətləri son onilliklər ərzində bir sıra tədqiqatçılar tərəfindən araşdırılmış və maraqlı nəticələr alınmışdır.

Azərbaycan pedaqoq və psixoloqlarından M.Ə.Muradxanov (1976), B.A.Əhmədov (1990), T.Ə.Məmmədov (1990), Y.R.Talıbov (1990), B.Y.Bəşirov (1992), və başqaları müəllim hazırlığının ümumpedaqoji və psixoloji məsələlərini tədqiq etmiş və problemə müəllim kadrlarının ümumi hazırlığı nöqteyi-nəzərindən yanaşmışlar. Bir sıra tədqiqatçılar isə, məsələn, M.M. Mehdizadə (1982), Ə.Ş.Həşimov (1990), Ə.Ə.Əlizadə (1998), Y.A.Məmmədov (2012), N.M.Kazımov (2010), R.H.Məmmədzadə (2010), M.Ə.Həmzəyev (1991), rus pedaqoq və psixoloqlardan O.A.Abdullina (1984), V.A. Slastenin (2008), M.V.Yemelyanova, İ.V.Jurlova, T.N.Savenko (2005), M.V.Bulanova-Toporkova (2002) və başqaları müəllimlər üçün zəruri olan peşə keyfiyyətlərini müəllimin peşə fəaliyyəti prosesində araşdırmışlar.

Bizim respublikada müəllimlərin yenidən hazırlanması sisteminin modernləşdirilməsi istiqamətində xüsusi tədqiqatlar aparılmasa da bir sıra tədqiqatçılar müasir müəllim hazırlığının bəzi cəhətlərini dissertasiya səviyyəsində tədqiq etmiş və müəyyən nəticələr almışlar. Belə tədqiqatçılardan Z.V.Dəmirova "Pedaqoji kadrların əlavə təhsilinin nəzəri və praktik problemləri"(2011), F.Y.Kərimova „Məktəbdaxili idarəetmənin modernləşdirilməsi texnologiyası"(2014), Rusiyada V.P.Poxomov "Ənənəvi təlim sistemindən inkişafetdirici - D.B.Elkonin – V.V.Davıdov təliminə keçid zamanı müəllimlərin yenidən hazırlanmasının psixoloji problemləri"(1997), N.İ.Pavlenko "Təbiət elmləri təliminin modernləşdirilməsi şəraitində təbiətşünaslıq müəllimlərinin ixtisasının artırılması modeli"(2005), N.İ.Raitina "İxtisasartırma şəraitində müəllimlərin innovasiya fəaliyyətinə hazırlanması peşəkarlığın inkişafı amili kimi"(2011), M.F.Fridman "Peşə təhsilinin modernləşdirilməsi şəraitində pedaqoji işçilərin hazırlanması"(2012), A.B.Serıx isə "Viktim kiçik məktəb yaşlı uşaqlarla qarışıqlı

təsirdə müəllimin peşəkarlıq hazırlığının formalaşması" (2001) adlı elmlər doktorluğu dissertasiyasını yazmışlar.

Lakin respublikamızda dissertasiya səviyyəsində aparılan tədqiqat işlərində bizim qarşıya qoyduğumuz problem hərtərəfli və sistemli şəkildə tədqiq edilməmişdir.

Beləliklə, respublikamızda müəllim kadrlarının yenidən hazırlanması probleminin qarşısında duran təxirəsalınmaz vəzifələr, bu sahədə mövcud olan praktik nöqsanlar, pedaqoji nəzəriyyədə və praktikada problemin kifayət qədər araşdırılmaması, respublikamızın spesifik xüsusiyyətləri və müasir dövrdə müəllim hazırlığına verilən tələblərin nəzərə alınmaması araşdırdığımız problemin aktuallığını sübut edir.

**Tədqiqatın obyekti** müəllimlərin yenidənhazırlanma təhsilində yeni peşə ixtisas təhsilinə hazırlanması prosesidir.

**Tədqiqatın predmeti** yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin təhsilverənlərin və təhsilalanların peşə keyfiyyətinin formalaşmasına təsiri məsələləridir.

**Tədqiqatın məqsədi:** müəllimlərin yenidən hazırlanmsımodelini hazırlamaq və müdavimlərin ixtisaslar üzrə hazırlığının mahiyyətini, strukturunu, məzmununu, yollarını və metodlarını müəyyənləşdirməkdir.

**Tədqiqatın vəzifələri:**

- problemin elmi-pedaqoji və metodik ədəbiyyatda qoyuluşunu nəzəri cəhətdən təhlil etmək;
- problem üzrə proqramların və tədris planlarının təhlili;
- təhsil alan müdavimlərin yeni ixtisas üzrə yenidən hazırlanması vəziyyətinin təhlili;
- müəllimlərin yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin prinsiplərinin və tələblərinin müəyyənləşdirilməsi;
- təcrübi- eksperimental iş prosesində təhsil alanların yeni ixtisaslar üzrə hazırlanmasının səmərəli yollarının müəyyənləşdirilməsi və yoxlanılması;
- müdavimlərin yeni ixtisaslar üzrə yenidən hazırlanması üzrə proqram və metodik tövsiyələrin hazırlanması.

Bu məqsəd və vəzifələrin reallaşdırılması üçün tədqiqatda aşağıdakı **işçi fərziyyəsi** irəli sürülmüşdür:

Əgər müəllimlərin yenidənhazırlanma təhsilinin modernləşdirilməsi təlimin praktikyönümlü olmasını, yeni ixtisasa yiyələnməklə bərabər müasir dövrün tələblərinə müvafiq biliklərin mənimsənilməsində fənlərarası inteqrasiyanı, elmlərarası əlaqələrin və ideyaların gücləndirilməsini, yenidənhazırlanma proqramlarının innovativ məzmununun aktuallaşdırılmasını, modullar əsasında keçirilməsini, müəllimin kommunikatv mədəniyyətinin for-

malaşmasını özündə ehtiva edən çevik quruluşa malik təlim məzmunu kimi həyata keçirilərsə, daha səmərəli struktur tətbiq olunarsa zamanın, cəmiyyətin, vətəndaşların və əlavə ixtisaslar üzrə təhsilin tələblərinə müvafiq təhsil alanların yenidən hazırlanmasına müsbət təsir göstərər.

**Tədqiqatın metodoloji əsasını** yeni ixtisaslar üzrə mütəxəssis hazırlayan təhsilverənlərin maariflənməsində və formalaşmasında mütəfəkkirlərin, görkəmli pedaqoq, psixoloq və maarifçilərin fikir və ideyaları, didaktik qanunlar və qanunauyğunluqlar və bu sahədə formalaşmış olan dünya təcrübəsi və nəzəriyyəsi təşkil edir.

Tədqiqat prosesində problemə, onun məqsəd, vəzifə və fərziyyəsinə cavab verən aşağıdakı **metodlardan** istifadə edilmişdir:

- pedaqoji, psixoloji və metodik ədəbiyyatın öyrənilməsi və təhlili;
- yenidənhazırlanma təhsili üzrə fəaliyyət göstərən universitet və institutların təcrübəsinin öyrənilməsi və təhlili;
- müəllimlərlə və müəssisənin rəhbər işçiləri ilə söhbət və anket sorğularının aparılması;
- müəllimlərin yenidənhazırlanma təhsilində fəaliyyətinin müşahidəsi, öyrənilməsi və təhlili;
- pedaqoji eksperiment;
- təhsilverənlərin və təhsilalanların fəaliyyətinin təhlili.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, dissertasiyada yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin mahiyyəti, məzmunu, yolları, metodları və strukturu işlənilmiş, respublikamızın spesifik xüsusiyyətləri, müasir dövrün tələbləri və dünya təcrübəsi nəzərə alınaraq konseptual yanaşmalar və prinsiplər müəyyənləşdirilmişdir. Təcrübi-eksperimental materiallar əsasında müəllimlərin yeni ixtisas üzrə yenidən hazırlanmasının peşə keyfiyyətinin formalaşmasının dinamikası və inkişaf şəraiti müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, ənənəvi yenidənhazırlanma təhsilindən fərqli olaraq müəllimin bilik və kompetensiyalarını formalaşdıran, elmi cəhətdən əsaslandırılan (prinsip və tələblər, müasir yanaşmalar) proqram və modullar üzrə təlim sistemi verilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, yenidənhazırlanma təhsilinin modernləşdirilməsi məktəbəqədər təhsil, ümumtəhsil məktəbləri müəssisələrində müasir dövrün tələblərinə cavab verən müəllimlərin yenidən hazırlanmasında intellektual, kommunikativ keyfiyyətlərin və kompetensiyaların formalaşmasına bilavasitə təsir edəcək, dövlətin müasir müəllimin qarşısında qoyduğu tələbləri müəyyən dərəcədə ödəyəcək.

Tədqiqatın nəticələri əsasında yeni praktik üsullar və bu işlərin həyata

keçirilməsinin məzmunu və metodikası işlənib hazırlanmışdır.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılmışdır:**

1. Yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin təhsilalanların yeni ixtisas biliklərinin mənimsənilməsinə, kompetensiyaların formalaşdırılmasına təsiri.

2. Modullar əsasında təlim-metodik kompleksinin tətbiqi və bunun müdavimlərin yeni ixtisas üzrə bilik və bacarıqlarının mənimsənilməsi səviyyəsinin yüksəlməsinə təsiri.

3.Yeni modelin həyata keçirilməsi metodikası .

**Tədqiqatın təşkili və mərhələləri.**

Tədqiqat işi 2012 - ci ildən başlayaraq dörd mərhələni əhatə etmişdir.

Birinci mərhələdə problem üzrə mövcud ədəbiyyat təhlil edilib ümumiləşdirilmiş, Bakıda və reqionlarda fəaliyyət göstərən əlavə təhsil müəssisələrində müəllimlərin yenidən hazırlanması üzrə təcrübə təhlil edilmişdir.

İkinci mərhələdə (2013-2014) nəzəri bazanın dəqiqləşdirilməsi və yenidənhazırlanma təhsilində müəllimlərin yeni ixtisas üzrə kompetensiyalarının formalaşdırılmasına yönəlmiş mövcud praktik materiallar üzrə müəyyənedici eksperiment aparılmışdır.

Üçüncü mərhələdə (2014-2015) müəllimlərin yenidən hazırlanması təhsilinin konseptual əsasları işlənilmiş, nəzəri müddəalara əsalanan layihə modeli kimi təqdim olunmuş, öyrədici eksperimentin nəticələri təhlil edilmişdir.

Dördüncü mərhələdə (2015) yoxlayıcı eksperimentin nəticələri müqayisə edilmiş, ümumiləşdirilmiş və sistemləşdirilmişdir.

**Tədqiqatın bazası** kimi Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu götürülmüşdür. Tədqiqatda 88 nəfər müəllim iştirak etmişdir. Bunlardan əlavə xeyli müəllim və müdavim anket sorğusuna və müsahibəyə cəlb edilmişdir.

**Tədqiqatın aprobasiyası və nəticələrin tətbiqi:** Dissertasiyanın əsas müddəaları onun məzmununu əhatə edən 9 elmi məqalə, 4 tezisdə öz əksini tapmışdır. Müəllif tədqiqatın nəticələri ilə bağlı,“Heydər Əliyev ideya-nəzəri irsində insan amili”elmi-praktik konfransında, Doktorant və gənc tədqiqatçıların XVII Respublikaelmi konfransı (2013), Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransında (2015) çıxış etmişdir. Eksperimentin gedişi və nəticələri vaxtaşırı Azərbaycan Müəllimlər İnstitutunun pedaqogika kafedrasının iclaslarında müzakirə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 9 yarımfəsli əhatə edən 2 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

“Giriş”də mövzunun aktuallığı əsaslandırımış, tədqiqatın obyekti, predmeti, məqsədi, fərziyyəsi, vəzifələri, metodoloji əsası, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası öz əksini tapmışdır.

Dissertasiyanın I fəsli **“Yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin pedaqoji və metodik əsasları”** adlanır. Bu fəslin “***Müəllimlərin yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin məqsədi,mahiyyəti və məzmunu***” adlanan I yarımfəslində pedaqoji işçilərin yenidən hazırlanmasının əsas məqsədi təlimin keyfiyyətinin yüksəldilməsini və əmək bazarının tələblərini nəzərə almaqla hazırlanmış proqramlar üzrə müəllimlərin yeni ixtisas biliklərinin, bacarıqlarının və vərdişlərinin mənimsənilməsinin təşkili kimi müəyyənləşdirilmişdir.

Problemin mahiyyəti açıqlanaraq qeyd edilmişdir ki, pedaqoji kadrların yenidənhazırlanması dövlətin təhsil standartlarına müvafiq olaraq mütəxəssislərin baza ixtisas təhsilinin pedaqoji fəaliyyətin aparılması tələblərinə uyğun yenidən hazırlanmasıdır.

İxtisas üzrə yenidənhazırlanma təhsilin müvafiq növlərinə uyğun dövlət standartı ilə müəyyənləşdirilmiış, keyfiyyəti təmin edən pedaqoji fəaliyyətin aparılması tələblərinə uyğun yeni peşə biliklərinin, bacarıqlarının və vərdişlərinin mənimsənilməsidir.

Yenidənhazırlanma təhsili ilkin baza təhsili proqramları ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərti ilə mütəxəssislərə verilən əlavə təhsildir. Proqramlar arasındakı fərq yenidənhazırlanma təhsili verən müəssisə tərəfindən müəyyən edilir.

Təcrübə və araşdırmalardan aydın olur ki, respublikamızda yenidənhazırlanma təhsilinin məzmunca yeniləşməsinə böyük ehtiyac vardır. Meydana çıxan məsələləri aşagıdakı şəkildə ümumiləşdirmək məqsədəuyğundur:

- fənlərin, o cümlədən pedaqoji fənlərin məzmunu çox vaxt müəllimin məktəbdəki fəaliyyəti üçün faydalı olmadığından, onların yenidən nəzərdən keçirilməsi və düzəlişlər edilməsi məqsədəmüvafiqdir;
- yenidənhazırlanma təhsili proqramının məzmununda təhsilin idarə edilməsi və rəhbərlik (liderlik) üzrə biliklərin təmin edilməsi zəruridir;
- müəllimlərin yenidən hazırlanması üzrə standartların işlənilməsi;
- fənlərin inteqrativ formada tədrisinə diqqətin artırılması, eyni zamanda müəllim hazırlığında hal-hazırda tədris olunan fənlərin sayının azaldılması;

- ilkin müəllim hazırlığı və yenidənhazırlanma kurikulumları arasında bağlılığın yaradılması;

- proqramların ictimaiyyət tərəfindən əldə edilə bilən, məntiqi və şəffaf olunmasının təmin edilməsi;

- müəllim hazırlığının bütün səviyyələrində və pillələrində təlim üsullarının yenidən nəzərdən keçirilməsi, təlim və tədris praktikasına İKT, yeni təlim üsulları və texnologiyalarının daxil edilməsi;

- azkomplektli ucqar kənd məktəblərinin tələbatının ödənilməsi məqsədi ilə ibtidai sinif müəllimlərinin hazırlıq kurikulumuna çoxsinifli tədris elementlərinin də daxil edilməsi.

Pedaqoji kadrların yenidən hazırlanması sistemində təhsilin məzmunu haqqında danışarkən tədris planları, proqramları və materiallarının modernləşdirilməsi zərurəti meydana çıxır.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, pedaqoji kadrların yenidən hazırlanmasında təlim prosesinin modernləşdirilməsi pedaqoji peşə səriştəliliyinin inkişafına xidmət edən bütün komponentlərinə (məzmununa, strukturuna, təşkilinə və nəticələrin qiymətləndirilməsinə) vəhdətdə yanaşma (vahidlik prinsipi) prinsipi əsasında həyata keçirilməsi mümkündür. Deyilən qanunauyğunluqlar və prinsiplər əsasında qurulan təhsil inkişafetdirici olduğu üçün keyfiyyətin yüksəldilməsinə zəmin yaradır.

"***Problemin elmi-pedaqoji və metodik ədəbiyyatda qoyuluşu***" adlanan ikinci yarımfəsildə problem üzrə pedaqoji və metodik ədəbiyyat təhlil olunmuşdur.

F.Y.Kərimova "Məktəbdaxili idarəetmənin modernləşdirilməsi texnologiyası" adlı dissertasiya işində yeni məktəb modelləri vermiş, onların ənənəvi məktəb modellərindən fərqini izah etmişdir.[1]N.İ. Raitina "İxtisasartırma şəraitində müəllimlərin innovasiya fəaliyyətinə hazırlanması peşəkarlıq inkişafının amili kimi" adlı dissertasiyasında müəllimlərin innovativ fəaliyyətə hazırlanmasının nəzəri və praktik məsələləri şərh edilmiş, ixtisasartırma şəraitində müəllimin innovasiya fəaliyyətinə hazırlanması modeli verilmişdir.[2]Yarımfəsildə qeyd olunanları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, tədqiq etdiyimiz problemin bu və ya digər cəhətləri ilə bağlı müxtəlif mövzularda tədqiqat əsərləri (dissertasiya, monoqrafiya, kitabçalar, məqalə

---

[1]Kərimova F.Y. Məktəbdaxili idarəetmənin modernləşdirilməsi texnologiyası. ped. üzrə fəlsəfə doktorluğu diss. Bakı: 2014, 126 səh.

[2]Раитина Н.И. Подготовка учителя к инновационной деятельности в условиях повышения квалификации как фактор профессионального развития: Дисс. канд. пед. наук, Чита, 2011, 259 стр.

və s.) yazılmışdır. Lakin bu əsərlərdə yenidənhazırlanma təhsilinin nəzəri və praktik məsələləri, onun modernləşdirilməsi, modernləşdirmənin Azərbaycanda pedaqoji kadr hazırlığına təsiri problemləri kifayət qədər tədqiq olunmamışdır.

I fəslin *"Yenidənhazırlanma təhsili üzrə mövcud vəziyyətin təhlili"* adlanan üçüncü yarımfəslində yenidənhazırlanma üzrə təcrübə təhlil edilmişdir. Təcrübə və araşdırmalar göstərmişdir ki, təlim prosesinin keyfiyyətinin qiymətləndirilməsi bütövlükdə təlimin məqsədlərinə nə dərəcədə nail olduğunu, həmçinin təlimçinin səriştəsi, təlim prosesinin səmərəliliyi və effektivliyini müəyyənləşdirmək imkanlarını yaratmışdır. O da müəyyən olunmuşdur ki, əlavə təhsil məqsədyönlü, müvafiq yeni mexanizm əsasında təşkil edilərkən pedaqoji kadrlar aşağıda göstərilən bilik və bacarıqlara mükəmməl yiyələnir, peşəkar dünyagörüşlərini təkmilləşdirirlər:

- pedaqoji -psixoloji bilik, bacarıqlar və peşəkar düşüncə tərzi;
- fənyönümlü biliklər, bacarıqlar və peşəkar düşüncə tərzi;
- ümummədəni səviyyəni və öz peşəsi haqqında təsəvvürləri əks etdirən bilik, bacarıq və vərdişlər. Bundan əlavə, müəllimlər başqaları ilə işləmək, İKT ilə işləmək və cəmiyyətdə işləmək bacarıqlarına yiyələnirlər.

Yenidənhazırlanma üzrə kadr hazırlığı, məktəb və uşaq bağçaları üzrə təcrübənin öyrənilməsi aşağıdakı məsələlərin həllinin zəruri olduğunu göstərdi:

1. Yenidənhazırlanma təhsilində "Uşaq Hüquqları Konvensiyası"nın tədris olunması.
2. Məktəb və məktəbəqədər təhsil müəssisələrində müəllim, uşaq, valideyn, psixoloq və hüquqşünas ekspetlərindən ibarət ekspert birliyinin yaradılması.
3. Resurs mərkəzlərinin yaradılması və bunun mexanizminin işlənməsi.
4. Müəllimlərin stimullaşdırılması.
5. Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə fənn kurikulumlarının, fəal təlim texnoloqiyalarının tədris planlarına daxil edilməsi.
7. Yenidənhazırlanma üzrə variativ proqram - layihələrin hazırlanması.
8. Modullar üzrə təlimin tətbiqi.
9. Daxili imkanların müəyyənləşdirilməsi və müəllimlərin metodik vəsaitlərin hazırlanmasına cəlb edilməsi.
10. Məzunların peşə testlərindən keçməsi, qiymətləndirilməsi və diplomların verilməsi.

Xarici ölkələrin təcrübəsi nəzərə alınaraq proqramların aşağıdakı prinsiplər əsasında tərtib olunması məqsədəuyğundur:

1. Akademik təlim peşəkar təcrübələrlə dəstəklənir.

2. Təlimə peşəkar ekspertlərin yardımı ilə dəstək verilir.

3. Təlim müəllimlərin ehtiyaclarına uyğunlaşdırılır.

4. Öyrənənlərin təcrübədə və kollegial şəraitdə biliklərini əks etdirməsinə, müzakirələr aparmasına imkan yaradılır.

I fəslin dördüncü yarımfəsli "***Yenidənhazırlanma üzrə təhsil alan müəllimlərlə aparılan müəyyənedici eksperiment***"ə həsr olunmuşdur. Eksperimentin məqsədi, vəzifələri açıqlanmış və təşkili yolları göstərilmişdir.

Eksperiment zamanı Azərbaycan Müəllimlər İnstitutunun Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə yenidənhazırlanma təhsilinin tədris planı (əyani, 35 həftə, 1020 saat) əsas götürülmüşdür. Bu tədris planı üzrə müəyyənedici eksperiment (1020 s.) 2013-2014-cü illərdə aparılmışdır. Eksperimentdə BPKİAYHİ-da təhsil alan müəllimlər iştirak etmişlər.

Cədvəl 1

| İllər | Qruplar | Müdavimlərin sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Aşağı | Orta | Yüksək |
| 2013-2014 | BPKİYHİ Kontrol qrup№ 4 | 19 | 9n | 7n | 3n |
| | | 100% | 47,4% | 36,9% | 15,7% |
| 2013-2014 | BPKİAYHİ Ekspeimсnt qrup №5 | 23n | 11n | 8n | 4n |
| | | 100% | 47,8 % | 34,9% | 17,3 % |

Göründüyü kimi, istər kontrol (19 nəfər), istərsə də eksperimental qrup (23 nəfər) müdavimlərinin ixtisas fənləri üzrə biliklərə yiyələnmələri müvafiq qaydada aşağı (47,4% ~ 47,8%), orta (36,9% ~ 34,9%) və yüksək (15,7% ~ 17,3%) göstəricilər üzrə demək olar ki, bərabər səviyyədədir.

Müəllimlərlə məktəbəqədər təhsilin ixtisası üzrə keçirilən müəyyənedici eksperiment zamanı yoxlama və ekspeimental qrupların təlim göstəriciləri, demək olar ki, çox yaxın idi. Belə ki, onlara verilən tapşırıqların (testlər, situasiyalar və suallar) yerinə yetirilməsində həm müsbət, həm də qüsurlu məqamlar özünü büruzə verirdi. Tapşırıqlar yerinə yetirilərkən aşağıdakı spesifik nöqsanlar özünü göstərdi:

1. Müdavimlər fənlər üzrə suallara cavab versələr də, təcrübədə biliklərini tətbiq etməkdə çətinlik çəkirlər.

2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) haqqında səthi biliklərə malikdirlər.

3. BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası haqqında məlumatları kifayət qədər deyil.

4. Uşaq psixologiyası haqqında müəyyən qədər biliklərə malikdirlər, lakin situasiya təqdim olunduqda vəziyyətdən çıxmaqda çətinlik çəkirlər.

5. Müasir təlim texnologiyaları mütəmadi tətbiq olunmur.

6. Məktəbəqədər yaşlı uşaqların psixoloji və inkişaf xüsusiyyətlərini kifayət qədər bilmirlər.

7. Müxtəlif sahələr üzrə (təsviri fəaliyyət, savad təlimi, sadə riyazi təsəvvürlər, fiziki tərbiyə və s.)işin metodikasının inteqrativ yolla aparılmasında nöqsanlara yol verirlər.

8. İnkişafetdirici təlimin təmin olunması üçün kifayət qədər nəzəri və praktik biliklərə malik deyillər.

9. Valideynlərlə maarifləndirmə işlərinin aparılması haqqında bilikləri məhduddur.

Dissertasiyanın beş yarımfəslini əhatə edən II fəsil **"Yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin imkan və yolları"** adlanır.

Fəslin birinci yarımfəslində ***"Yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin prinsipləri və tələbləri"*** şərh olunur.Elmi-pedaqoji araşdırmalar göstərir ki, yenidənhazırlanma təhsilinin müasir sisteminin yaradılmasının konseptual prinsipləri aşağıdakılardır:

- səriştəli-fəaliyyətyönümlü yanaşma prinsipi. Bu prinsip məzmunun inkişafında, yəni təhsil proqramlarının və onların modullarının işlənilməsində, təlimin inteqrasiyasında, təhsil alanın peşəkar pedaqoji fəaliyyətində nəzərə alınır;
- elm və təcrübənin vəhdəti prinsipi. Yenidənhazırlanma təhsilində layihələndirmə və tədqiqatçılığı inkişaf etdirməklə bərabər bu sahədə fəaliyyət göstərən görkəmli mütəxəssisləri işə cəlb etmək;
- müvafiqlik prinsipi. Bu prinsip bütün müəllim kadrlarının bərabər şəraitdə keyfiyyətli təhsil almalarına imkan verir. Təhsil müvafiq proqramlara və əlavə təhsil sisteminin standartlarına müvafiq təşkil olunur. Bu zaman müdavimlərin həyat şəraiti, iş yeri və onlar üçün rahat olan vaxt təmin olunur;
- operativlik prinsipi. Təhsil sahəsində baş verən dəyişikliklərə çevik reaksiya verməklə qabaqlayıcı təkliflər verilir;
- təhsil alanların sifarişi ilə yenidənhazırlanma sistemində təlim proqramlarının modul xarakterli quruluşunda fərdiləşdirmə prinsipi. Təhsil alanların istəyinə müvafiq olaraq təlim materialının mənimsənilməsinə yönələn forma və metodların tətbiqi;
- təhsilin fasiləsizliyi prinsipi. Əlavə təhsilin başqa istiqamətləri sırasında;
- nəticəyönümlülük prinsipi. Yenidənhazırlanma üzrə təhsil

xidmətlərinin reallaşmasında və qiymətləndirilməsində son nəticəyə istiqamətlənmək. Dövlətin və ictimai ekspertizanın köməyi ilə təhsil proqramlarının, onların quruluşunun kredit-modul sisteminin akkreditasiyası, bunlarla hazırlıq keçən mütəxəssislərin sertifikatlaşdırılması və müvafiq kateqoriyalarda attestasiyası;

- təkliflərin sifarişlərə uyğunluğu prinsipi yenidənhazırlanma sahəsində təhsil xidmətlərinə olan tələbatın xüsusi mexanizmlərlə öyrənilməsi və monitorinqi. Sifarişlərin formalaşdırılması və bölgüsü ilə xidmət göstərən təşkilatlar arasında mexanizmlərin müvafiqliyi və onun yerinə yetirilməsinin monitorinqi;
- aşkarlıq prinsipi. Geniş pedaqoji ictimaiyyətin yenidənhazirlanma sahəsində gedən prosesə münasibət bildirməsini və buna təsir etməsi.

Yenidənhazırlanma təhslinin yeni modeli işlənərkən "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası"nda təqdim olunmuş prinsiplər əsas götürülmüşdür:

- nəticələrin qiymətləndirilməsində müstəqillik və obyektivlik prinsipi;
- çeviklik prinsipi;
- mobillik prinsipi;
- yenidənhazırlanma sistemində modelin variativliyi.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının məzmunu təhsil sahəsində dövlət siyasətini və təhsil sisteminin islahatını təyin edən humanistlik, demokratiklik, bərabər şərait, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik və fasiləsizlik meyarları gözlənilməklə, aşağıdakı əsas prinsiplərlə müəyyən edilir:

a) şəxsiyyətyönümlülük prinsipi; b) fundamentallıq prinsipi; c) universallıq prinsipi; ç) inteqrativlik prinsipi; d) variativlik prinsipi; e) elmilik və praktiklik prinsipi; ə) müasirlik prinsipi; f) şəffaflıq prinsipi; g) fərdiləşdirilmə prinsipi; ğ) varislik prinsipi; h) alternativlik və rəqabət prinsipi; diversifikasiya prinsipi.

Pedaqoji kadrların yenidən hazırlanması sistemində innovasiya ilə yeniləşmə şəraitində, inteqrasiya, qloballaşma və təhsildə idarəetmənin sosiomədəni prinsiplərinə verilən tələblərə isə aşağıdakıları aid etmək olar:

- mənəviyyat, mədəniyyətəmüvafiqlik, insanın və təhsilin dəyəri, təlim fəaliyyəti;
- inkişafda nizamlılıq və qeyri-nizamlılığın (innovativ proseslərin) qarşılıqlı əlaqəsi, qarışılıqlı təsirin nəzərə alınması;
- mədəniyyətlərarası qarşılıqlı təsirin və əməkdaşlığın genişləndirilməsi;

a) fəlsəfi səviyyədə;

b) ümumi elmi səviyyədə - ümumi elmi əhəmiyyətli metodların tətbiqi-

modelləşdirmə, idarəetmədə fənlərarası qarşılıqlı əlaqələrin genişləndirilməsi: iqtisadi-riyazi modelləşdirmə və proqnozlaşdırmanın, iqtisadi-pedaqoji modelləşdirmənin və təhsilin proqnozlaşdırılmasının istifadə edilməsi;

c) konkret elmi səviyyədə - dəyərli istiqamətləndirici sistem və təlim texnologiyalarının sosiomədəni funksiyalarını aktuallaşdıran təhsil məzmununun layihələndirilməsi (ssenarilər - seçim, dialoq, layihə və b.);

ç) idarə olunan personala fərdi yanaşmanın gücləndirilməsi; fasiləsiz təhsil prinsipinin və bu prosesdə subyektin şəxsiyyətyönümlü inkişafı.

Beləliklə, pedaqoji kadrların yenidən hazırlanmasının təşkili və idarə olunması sisteminin prinsip və tələblərinin reallaşdırılması sosiumun innovativ inkişafının xarakteristikası ilə bağlıdır. İnnovativ yeniləşmə cəmiyyətin ümumi qanunauyğunluğudur. Şübhəsiz ki, bu öz təsirini təhsildə də büruzə verir.

Fəslin ikinci yarımfəsli ***"Yenidənhazırlanma təhsilinin yeni məzmununun modullar əsasıda təkmilləşdirilməsi imkanları"*** adlanır. Pedaqoji ədəbiyyatda modul üzrə təlim dedikdə idrak və funksional məqsədlər nəzərə alınır. İdrak məqsədlərinin reallaşdırılması təlim materialının nəzəri məzmunu ilə təmin olunur. İdrakı inkişaf etdirən modul proqramları müdavimlərdə fundamental biliklər sistemini formalaşdırmaq məqsədi ilə tərtib olunur.

Funksional məqsədlərin reallaşdırılması təlimin məzmununun praktik hissəsi ilə təmin olunur və təhsilalanların kompetensiyalarının formalaşdırılmasını nəzərdə tutur. Modulun məzmunu funksional əlamətlərə görə, yəni funksiya, üsul idraki yollar və peşə fəaliyyəti əlamətlərinə görə formalaşdırılır. Funksional tipli proqramlar məhz peşə hazırlığı üzrə təlim keçən müdavimlərə şamil olunur.

Yenidənhazırlanma üzrə təlim proqramlarının əsas funksiyaları bunlardır:

- pedaqoji peşə təhsilinin proqram tələblərinə müvafiq kompetensiyaların formalaşmasında məqsədlərin reallaşması;
- dəyişkən təlim sorğularına çevik reaksiya, yeni peşə keyfiyyətlərini mənimsətmək üçün nəticələrə yiyələnmək;
- öyrənənlərin fərdi təlim xidmətlərini təmin etmək üçün (məzmun, müddət, forma, yer)şəraitin yaradılması.

**Modullar üzrə təlimin üstünlükləri aşağıdakılardır:**

1. Təhsilalanlara rahat formada, vaxtda və öz tempinə uyğun az vəsait sərf etməklə təhsil almaq imkan verir.
2. Təhsilverənlər hər bir kurs, dərslik və proqram üçün metodik

işləmələr hazırlamaqdan azad olurlar.

3. Təhsil müəssisəsi üçün həmin müəllimlər və həmin təlim bazası üzrə daha çox müdavim hazırlamaq imkanı əldə edir.

***"Yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin səmərəli yolları"*** adlanan üçüncü yarımfəsildəapardığımız araşdırmaları nəticəsi olaraq göstərilir ki, yenidənhazırlanma təhsilinin modernləşdirilməsi təhsilalanların hazırlığında mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan yenidənhazırlanma sisteminin fəaliyyət modeli təqdim edilir. Fəaliyyət modelinin strukturu aşağıdakı kimidir:

1. Təlim xidmətlərinin işçiləri tərəfindən tələbatların müəyyən edilməsi;
2. Yenidənhazırlanma təhsili aparılan müəssisələrə təlim sifarişlərinin verilməsi (qarşıqlı partnyor mexanizmlərindən istifadə etməklə);
3. Yeni və yaxud artıq mövcud olan təlim xidmətləri üzrə sifarişlərin bölünməsi;
4. İstehlakçıların və sifarişçilərin sorğularına əlavə təhsil müəssisələrinin reaksiyası və modullar üzrə təlim proqramlarının hazırlanması;
5. Təlim proqramlarının və onların modullarının peşəkar ekspertizasının (dövlət-ictimai) həyata keçirilməsi;
6. Yenidənhazırlanma təhsilində təlim prosesinin modul proqramları ilə keçirilməsi;
7. Yenidənhazırlanma təhsilinin nəticələrinə görə diplomların verilməsi.

Modul təhsil proqramları mərkəzi təhsil müəssisələrində reallaşdırılır. Elə bir mühit, məkan yaradılır ki, hər hansı təhsil müəssisəsinin (və ya pedaqoqun) digər təhsil müəssisəsi (və ya pedaqoqla) əlaqəsinin problem baxımından səmərəliliyinə təminat verilir.Müəssisələr arasında həmçinin resurs, informasiya, kadr, normativ-hüquqi və onun maliyyə təminatı ilə bağlı fəaliyyət göstərməsi funksiyalar bölüşdürülür.

Yenidənhazırlanma sistemində kadrların hazırlığı fərdi təlim planları əsasında (FTP) keçirilir. Fərdi təlim planları müdavimlərin keçdiyi müxtəlif təhsil proqramlarına daxil olan modullar əsasında tərtib olunur.

Müdavimin fərdi təlim planına və ona əlavə tədris qrafikində ixtisasa uyğun əsas modullar və seçim üzrə modullar, onlara ayrılan saat, müddət, təhsil proqramının sonunda yekun attestasiyasın formasında göstərilir.

Fərdi təlim planı və kadr hazırlığının məzmun səviyyəsinin əsası müəssisənin öz proqramının reallaşdırılması qarşısında duran vəzifələrə müvafiq müəyyənləşdirilir. Burada həmçinin regionlarda, rayonlarda, ayrı-ayrı məktəblərdə çalışan müəllimlərin peşə karyeraları, təhsili və planlaşdırdığı attestasiya ilə bağlı ehtiyacları nəzərə alınır.

Fərdi təlim proqramları işlənərkən təhsil proqramlarının yerləşdirildiyi

informasiya bankının müvafiq məlumatlarından istifadə olunur. Bu da fərdi təlim proqramının mükəmməl, eyni zamanda müdavimin istəyinə uyğun hazırlanmasına kömək edir.

Fərdi təlim proqramının tərtibində göstərilən ixtisasın mütəxəssisi üçün vacib olan modullar və attestasiyanın yekunlarına müvafiq işçi kateqoriyaları daxil olunur. Krediti yüksək olan modullar onların təhsil proqramında sayını ixtisar edir ki, bu da təlim müddətində xeyir qazanmağa imkan verir.

Fərdi təlim planları reallaşdırılan zaman (rəhbərliyin razılığı və müdavimin ehtiyacları nəzərə alınmaqla) onun məzmunun dəyişməsi, həm də buraya müəyyən əlavələrin olunması mümkün olur.

Müəllimlərin nailiyyətlərinin qiymətləmdirilməsi üçün yeni mexanizmin yaradılması üzrə:

1. "Yenidənhazırlanma-attestasiya-stimul" prinsipinin həyata keçirilməsinə imkan yaradan attestasiya mexanizminin yaradılması.

2. Monitorinq və keyfiyyətin təminatı sahəsində islahatların həyata keçirilməsi üçün lazımi normativ-hüquqi baza nəzərdə tutulmuşdur.

3. Müəlliimlərin hazırlıq səviyyəsinin yoxlanılması:

- dərs dinləmə;
- anket sorğusu;
- monitorinq;
- yeni üsullarla uşaqların testlə yoxlanılması.

4. Resurs mərkəzlərinin yaradılması.

Müəllimlərə diplomların verilməsi mütəxəssisin ümumi təhsil sistemində müstəqil işləməsi üçün modul proqramlar üzrə əldə etdiyi bilik və praktik təcrübənin müstəqil ekspertlər tərəfindən aşkar edilməsi, qiymətləndirilməsi və təsdiq edilməsi prosedurudur.

II fəslin dördüncü yarımfəslində ö*yrədici eksperimentin* məqsədi, vəzifələri və aparılması göstərilmişdir. Eksperiment yuxarıda deyilənləri nəzərə alaraq tərtib etdiyimiz proqram əsasında aparılmışdır.

Üçüncü mərhələdə (2014-2015) yenidənhazırlanma üzrə təhsildə olan innovasiyalar, müəllim – tərbiyəçilərin buna hazırlığı, yerli və beynəlxalq təcrübənin tətbiqi yer almışdır. İkinci ixtisasa yiyələnmə üzrə komponentlər, meyarlar, müəllim hazırlığı səviyyəsinin qiymətləndirilməsi göstəriciləri işlənmiş, müəllimlərin yenidən hazirlanması modeli təqdim edilmişdir. Yenidənhazırlanma təhsili modullar əsasında təkmilləşdirilmişdir. Eksperimentin təşkili üçün pedaqoji şəraitin səmərəliliyi təmin edilmişdir. Bizim tərtib etdiyimiz modelin aprobasiyası həyata keçirilmişdir.

Tədris planında üc modul verilmişdir:

Pedaqoji fəaliyyətin ümumi əsasları (əlavə dərslər) adlanan birinci

modul pedaqogika, psixologiya, sosial-iqtisadi biliklər sahəsində baza bilikləri mənimsəməyi nəzərdə tutur.

İkinci modula ixtisas sahələri üzrə aşağıdakı fənlər aiddir.

Üçüncü modul innovasiyalar üzrə aparılır.

Öyrədici eksperimentin nəticələri cədvəllərlə verilmişdir.

I modul üzrə - pedaqogika, psixologiya, sosial-iqtisadi biliklər sahəsində baza bilikləri əsaında aparılan eksperimentin nəticələri

Kontrol qrup müdavimlərindən fərqli olaraq eksperimental qrup müdavimləri I modul üzrə (Pedaqogika və Psixologiya, Uşaq hüquqları haqqında konvensiya) verilən suallara düzgün cavab vermiş, təqdim olunan situasiyalarda müvafiq çıxış yolu tapmış və testlərin cavablarını düzgün göstərmişlər. Müdavimlər uşaqların tərbiyə problemlərini aşkar etməyi bacarır, tərbiyənin məqsədi və vəzifələrini müəyyən edir, metodik və pedaqoji ədəbiyyatla işləyir, təhlil edir, uşaqlarla işləməyi layihələndirir.

II modul üzrə eksperiment aşağıdakı ixtisas sahələri üzrə keçirilmişdir:

1. Məktəbəqədər pedaqogika.
2. Məktəbəqədər yaş dövrünün oyunları.
3. Təsviri incəsənət və onun tədrisi metodikası.
4. Musiqi və onun tədrisi metodikası.

III modul təlimi innovasiyalar üzrə aparılmışdır (kurikulum, fəal və interaktiv təlim, İKT, inklüziv təlim).

Öyrədici eksperimentin nəticələri də müəyyənedici eksperimentin nəticələrinin qiymətləndirilməsi üçün tərtib olunan yoxlayıcı tmetodika ilə həyata keçirilmişdir. Öyrədici eksperimentin nəticələrinə əsasən, eksperimental qrupların müdavimləri kontrol qruplarının müdavimləri ilə müqayisədə daha yaxşı nəticələr əldə etdiyi müəyyən oldu.

Təlimin sonunda müdavimlər aşağıdakı bilik və kompetensiyalara yiyələnmişlər:

1. Müdavim uşaqların tərbiyə problemlərini aşkar etməyi bacarır, tərbiyənin məqsədi və vəzifələrini müəyyən edir, metodik və pedaqoji ədəbiyyatla işləyir,təhlil edir, uşaqlarla işləməyi layihələndirir.
2. Bu proqramı mənimsəyən müdavim məktəbəqədər tərbiyə üzrə əsas fəaliyyət növlərini tətbiq etməyi bacarır.
3. Tərbiyə-təlim sahəsində proqramların məzmununa uyğun pedaqoji prosesin tam həyata keçirilməsi, uşaqların uğurlu inkişafının şərti kimi inkişafetdirici pedaqoji mühitin yaradılması, uşaqların həyatının təşkili və müxtəlif fəaliyyət növlərinə rəhbərlik (oyun, idrak fəaliyyəti, bədii-estetik, fiziki inkişaf, sağlamlıq, təhlükəsizlik, ünsiyyət, əmək, məişət), uşağin fərdi xüsusiyyətlərini nəzərə almaqla şəxsiyyətyönümlü yanaşma, uşağın

mənimsədiyi bilik və bacarqların təhlilini aparır.

4. Təlim-metodik sahədə təlim proqramlarının öyrənilməsi əsasında tərbiyə-təlim işlərini, təlim-metodik ədəbiyyatı və ətraf aləm haqqında informasiyaları planlaşdırır. Əldə etdiyi nəticələrin təhlili əsasında tərbiyə-təlim təaliyyətini layihələndirir.

5. Sosial-pedaqoji sahədə valideynlərə praktik əhəmiyyət kəsb edən məktəbəqədər və ailə pedaqogikası, psixologiyası, tərbiyə metodlarına aid məsləhətlər verir. Məktəbəqədər təhsil müəssisəsinin başqa əməkdaşları ilə (musiqi rəhbəri, defektoloq, psixoloq, tibb işçisi) və valideynlərlə ünsiyyət edir, təlimin texniki vasitələrindən və kompüter texnologiyasından istifadə edir, özünütəhsilləndirmə və özünütərbiyə bacarıqlarını mənimsəyir.

6. Müdavim həmçinin uşaq hüquqları haqqında əsas sənədləri və özünün uşaqlara olan münasibətində vəzifələrini ( BMT nin Uşaq hüquqları haqqında Konvensiyası, İnsan hüquqları və əsas azadlıqları haqqında Beynəlxalq konvensiya, Azərbaycan Respublikasının konstitusiyası, Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu); məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsinin məqsədi, vəzifələri, məzmunu, prinsipləri, formaları, metodları və vasitələri; insan psixologiyasının əsaslarını və məktəbəqədər yaşlı uşaqların psixoloji xüsusiyyətlərini, fəaliyyət növlərinin metodikasını anatomiya və fiziologiyanın xüsusiyyətlərini; sanitar-gigiyenik şərait təmin olunması tələblərini; uşağın həyatının təhlükəsizliyinə dair təlimatları bilir.

II fəslin beşinci yarımfəsli ***yoxlayıcı eksperimentə*** həsr olunur.

Cədvəl 2

**Yoxlayıcı eksperimentin nəticələri**

| İllər | Qruplar | Eksperimentin mərhələləri | Müdavimlərin sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|---|
| | | | | Aşağı | Orta | Yüksək |
| 2013-2014 | BPKİAYHİ Kontrol qrup №4 | Müəyyənedici Eksperiment | 19n | 9n | 7n | 3n |
| | | | 100% | 47,4% | 36,9% | 15,7% |
| | Eksperimental qrup № 5 | | 23 n | 11n | 8n | 4n |
| | | | 100% | 47,8% | 34,9% | 17,3% |
| 2014-2015 | BPKİAYHİ Kontrol qrup№4 | Müəyyənedici Eksperiment | 23n | 12 n | 9n | 2n |
| | | | 100% | 52,2% | 39,1% | 8,7% |
| | Ekspeimental qrup№ 5 | | 23 | 3n | 4n | 16n |
| | | | 100% | 13% | 17,4 % | 69,6 % |

Cədvəldən göründüyü kimi, müəyyənedici eksperimentdə əgər kontrol qruplarının təlim göstəriciləri aşağı səviyyədə 47,4 % ~ 47,8 %, orta səviyyədə 36,9% ~ 34,9 %, yuxarı səviyyədə 15,7% ~ 17,3% nisbətindədirsə, yoxlayıcı eksperiment zamanı qruplarda müvəffəqiyyət göstəriciləri xeyli artdı. Belə ki, mənimsəmə aşağı səviyyədə 52,2% -dən 13 %-ə, orta səviyyədə 39,1%-dən 17,4%-ə düşmüşsə, yuxarı səviyyədə 8,7 %-dən 69,6%-ə qalxmışdır. Bu göstəricilər təqdim etdiyimiz yenidənhazırlanma modelinin səmərəliliyini, irəli sürdüyümüz fərziyyənin doğruluğunu bir daha sübut edir.

Beləliklə, alınan nəticələr müdavimlərin məktəbəqədər təhsil üzrə yenidənhazırlanma modelinin modullar üzrə təliminin səmərəliliyini, bu yönümdə təlimin daha səmərəli olduğunu sübuta yetirməklə yanaşı onların bu ixtisasın sahələrini daha dərindən mənimsəməsinə, bilik və bacarıqların, kompetensiyaların formalaşmasına müsbət təsir edərək təcrübədə onlardan istifadə edilməsini təmin etdi ki, bu da irəli sürdüyümüz fərziyyənin doğruluğunu bir daha sübut etdi.

Tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə əsas vermişdir.

1. Müasir tələblərə cavab verən pedaqoji kadr olmadan təhsili yenilik səviyyəsinə qaldırmaq mümkün deyildir. Təhsilin keyfiyyətinin yüksəldilməsi müəllimdən, təhsili idarə edən insanlardan, onların vətəndaşlıq amalından, ləyaqət, mənəviyyat, mədəniyyət və müasir tələblərə cavab verən peşə-ixtisas hazırlığından asılıdır.

2. Araşdırmalar göstərdi ki, respublikada aparılan məqsədyönlü təhsil islahatları nəticəsində təhsilin məzmununda, idarə olunmasında köklü dəyişikliklər edilmiş, bu sahədə zəngin təcrübə toplanmışdır. Bununla yanaşı şəxsiyyətyönlü pedaqoji prosesin humanistləşdirilməsinə yönələn meyil ilə avtoritar məktəb ənənələri arasında, yeni məqsəd və yanaşmalarla köhnə iş formaları arasında müəyyən ziddiyyətlər mövcuddur.

3. Nəzəri və metodik ədəbiyyatın təhlili göstərdi ki, müəllimlərin yenidənhazırlanma məsələləri xüsusi tədqiqat obyekti olmamış, bu sahəyə aid elmi-pedaqoji və metodik ədəbiyyat kifayət qədər işlənməmişdir.

4. Müəyyənedici eksperimentin nəticələri göstərdi ki, mövcud iş sistemi ilə aparılan yenidənhazırlanma özünü doğrultmur. Bunun səbəbləri aşağıdakılardır:

a) təlimin ənənəvi metodlarla aparılması;

b) inteqrasiya prinsipinin gözlənilməməsi;

c) mövcud iş sisteminin müasir prinsip və tələblərə cavab verməməsi;

ç) yenidənhazırlanma təhsilinin idarə olunmasına innovasiyaların sistemli tətbiq olunmaması;

d) yenidənhazırlanma təhsilinin məzmununa yeni yanaşmaların lazımi səviyyədə tətbiq olunmaması (təlim planlarının, proqramların, modulların və digər metodik materialların modernləşməsi zəruriyyətinin meydana çıxması və s.);

e) mövcud strukturun özünü doğrultmaması.

Hər iki eksperimentin (müəyyənedici və öyrədici) nəticələri yoxlayıcı metodika (diaqnostika və qiymətləndirmə) ilə müəyyənləşdirilmişdir.

5. Dissertasiyada yoxlayıcı metodikanın aparılması nəticəsində alınan dəlillər yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin meyarlarını müəyyənləşdirməyə imkan verdi. Bunlar aşağıdakılardır:

a) ənənəvi üsuldan fərqli olaraq yenidənhazırlanma proqramlarının rəqabətyönlü istifadəsi üçün şəraitin yaradılması. Bununla əlaqədar olaraq yeni strukturun tətbiqi zəruridir. Regionlarda resurs mərkəzlərinin yaradılmasına, müdavimlərin ehtiyaclarının nəzərə alınmasına ehtiyac vardır;

b) pedaqoji işçilərin yenidənhazırlanma təhsilini hansı müəssisədə alması üçün sərbəst seçim etmək imkanının yaradılması;

c) istehlakçıların seçimi üçün modulların işlənilməsi.

6. Müəyyənedici eksperimentin və anket sorğularının nəticələrini, son illərdə əldə olunan yerli və beynəlxalq təcrübəni nəzərə alaraq modul proqramları hazırlanmış və eksperiment aparılmışdır. Metodikanın xüsusiyyətləri bunlardır: innovativ fəaliyyətə hazırlıq zamanı müdavimlərlə əlavə təhsil müəssisəsinin mütəxəssisi arasında subyekt - subyekt münasibətinin reallaşdırılması; peşəkarlıq tələblərini nəzərə almaqla müəllimlərin innovativ fəaliyyətə hazırlıqda aktual məzmun seçimi; yeni biliklərin mənimsənilməsi üçün müəllimlərdə motivasiyanın formalaşdırılması; müəllimlərin refleksiv fəaliyyətinin formalaşdırılması. Metodikaya motivasiya, öyrədici, refleksiv - layihə və praktik mərhələlər daxildir ki, bu da müəllimin bilik əldə etmək bacarığını, özünütəhsilləndirmə vərdişlərini formalaşdırır.

7. Müşahidələr göstərdi ki, müəllimlərin innovativ fəaliyyətə hazırlığı peşə səriştəliliyinin inkişafı üçün zəmin yaradır.

8. Tədqiqatın gedişində müəyyən olundu ki, təlimin müasir tələblər əsasında təşkili, innovasiyalar, yenidənhazırlanma təhsilinin yeni modeli - modulların tətbiqi nəticəsində müdavimlər mexanizmlər, kurikulum, monitorinq və qiymətləndirmə, fəal və interaktiv təlim metodları haqqında biliklər əldə edir, təcrübədə rastlaşdıqları problemlərin aradan qaldırılması üçün zəruri kompetensiyalara yiyələnirlər. Seminar və praktik məşğələlərdə qabaqcıl təhsil müəssisələrinin iş təcrübəsi ilə tanış olur, fikir və təcrübə mübadiləsi aparırlar.

9. Yenidənhazırlanma təhsili müəllimlərin işlədiyi kollektivin psixoloji

atmosferinə adaptasiyasına, uşaqlara və valideynlərə həssaslıqla yanaşmasına və yaradıcılıq meyillərinin reallaşdırılmasına yönəldiyindən, bu istiqamətdə bacarıqların formalaşmasına ciddi təsir göstərir.

10. Yenidənhazırlanma təhsili zamanı peşə kompetensiyalarının formalaşdırılmasında pedaqoji təcrübənin imkanları genişdir. Belə ki, pedaqoji təcrübə zamanı dəstəkləyici təlim mühitinin olması, ünsiyyət və əməkdaşlığın təmin edilməsi, müdavimlərin hər biri üçün bərabər imkanların yaradılması onların öz biliyini və yaradıcılığını tam realizə etməyə imkan verir.

11. Tədqiqat göstərdi ki, problem baxımından auditoriyadankənar işlərin məqsədəuyğun təşkili də pedaqoji kadr hazırlığında mühüm əhəmiyyət kəsb edir.

12. İnnovativ metodikanın mənimsənilməsi müəlliimlərin məktəbəqədər təhsil müəssisələrində işin təşkilinə yaradıcı yanaşmasını təmin edir.

13. Təlimin nəticələrini öyrənmək məqsədi ilə müdavimlərə xüsusi testlərin (çətin və tez-tez rastlaşmadığı) təqdim edilməsi, problemli situasiyaların yaradılması onların mənimsədikləri bilik və kompetensiyaları nə dərəcədə tətbiq edəcəklərini üzə çıxardı. Belə ki, müəllimlərin ikinci ixtisasa yiyələnməsi üçün yenidən hazırlanmasının modernləşdirilməsi, yəni yeni yanaşmalar, bu sahənin strukturunun, məzmununun, iş formalarının müasir tələblərə uyğun qurulması, müasir metod və texnologiyaların tətbiqi, modullar üzrə təlim müəllimlərin çətinliklərini, sosial və peşə borcunun yerinə yetirilməsi zamanı əldə etdikləri təcrübəni, yaş xüsusiyyətlərini (yorğunluq və enerjinin tükənməsi), təlimi öz üzərinə götürmək məsuliyyətini, onların mədəni və pedaqoji səviyyəsini, təlim prosesinin psixoloji xüsusiyyətlərini, idrak maraqlarını nəzərə alaraq yaradıcılıq qabiliyyətlərini stimullaşdırır.

Tədqiqat prosesində gəldiyimiz nəticələrə əsasən aşagıdakı **təkliflərin** nəzərə alınmasını vacib hesab edirik:

1. Azərbaycan Respublikasında yenidənhazırlanma təhsili üzrə proqramların təkmilləşdirilməsi kadr hazırlığı keyfiyyətinin daha da yüksəldilməsinə geniş imkan yaradar.

2. 2013-cü il 24 oktyabr tarixdə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında sərəncamına əsasən regional universal mərkəzlərin qurulması məsələlərinin həlli müəllimlərin yenidən hazırlanması təhsilinin də daha məqsədəuyğun təşkilinə müsbət təsir göstərər.

3. Gələcək üçün müəyyən edilmiş perspektivlər, əsasən, təkmil normativ-hüquqi bazanın yaradılması, yenidənhazırlanma sistemində zəruri

struktur dəyişikliklərinin aparılması, yeni kurikulumların hazırlanıb təsdiq edilməsi, müasir monitorinq və qiymətləndirmə sisteminin tətbiqi məsələlərinin işlənilməsinə ehtiyac vardır.

4. Yenidənhazırlanma təhsilinin modernləşdirilməsi məqsədi ilə müvafiq modul-kredit proqramlarının, yeni məzmuna uyğun metodik kitab və tövsiyələrin hazırlanması bu sahədə işin keyfiyyətinin yüksəldilməsinə imkan yaradar.

5. Yenidənhazırlanma təhsili üzrə vaxtaşırı seminarların, konfransların və dəyirmi masaların keçirilməsi bu sahədə təcrübənin zənginləşməsinə müsbət təsir göstərər.

Dissertasiyanın məzmunu ilə bağlı iddiaçının aşağıdakı **məqalə və tezisləri** çap olunmuşdur:

1. Səriştəli müəllim hazırlığının aktual problemləri // Azərbaycan Müəlimlər İnstitutu, Xəbərlər, 2011, №2, s.67-70

2. Müasir təhsildə tələbələrin özünügerçəkləşdirməsini zəruri edən amillər // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi Əsərlər, 2011, №2, s.82-85

3. İxtisasartırma kurslarında müəllimlərin peşə səriştəliliyinin formalaşdırılması //Azərbaycan məktəbi, 2012, №5, s.49-53

4. Müəllim hazırlığında peşə səriştəliliyinin formalaşdırılması modeli // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2013, № 1, s.36-40

5. Müəllimlərin milli mənəvi keyfiyyətlərinin formalaşmasında Heydər Əliyev ideyalarından istifadə / "Heydər Əliyev ideya-nəzəri irsində insan amili" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 27 aprel 2013, s.216-219

6. Pedaqoji kadrların yenidənhazırlanma sisteminin idarə olunmasının modernləşdirilməsi / Doktorant və gənc tədqiqatçıların XVII Respublikaelmi konfransı. Bakı, 2013, s.172

7. Modernization of teacher retraining education // ВЕСТНИК Московского Городского Педагогического Университета "Гуманитарные науки" , 2013, №4, с.189-195

8. Yenidənhazırlanma təhsilinin modernləşdirilməsinin pedaqoji kadrların hazırlığına təsiri //Azərbaycan məktəbi, 2014, № 2, s.53-58

9. Состояние работы по профессиональной переподготовке учителей в Азербайджане // Казахский национальный педагогический Университет им. Абая, Вестник, 2014, №1, с.34

10. Pedaqoji kadrların məktəbəqədər təhsili üzrə yenidənhazırlanması məsələləri / "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı"

mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, 2014, s.348-350
11. Yenidənhazırlanma təhsilinin modernləşdirilməsinə yeni yanaşmalar // Azərbaycan Müəllimlər İnstitutu, Xəbərlər, 2015, № 3, s.50-52
**12.** Pedaqoji kadrların yenidənhazırlanma sisteminin idarə olunmasının aktual problemləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2015, №3, s. 166-170
13. Pedaqoji kadrların yenidənhazırlanması keyfiyyətinin yüksəldilməsi yolları / Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları. Bakı, 2015, s.48

**Курбанова Л.К.**

**Влияние модернизации переподготовки образованияна подготовку педагогических кадров**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, двух глав, девяти параграфов, вывода и списка использованной литературы.

Во введении обоснована актуальность исследования, определены цель и гипотеза темы, объект и предмет исследования, его научное и практическое значения, обоснованы представленные на защиту научные положения и полученные результаты.

В первой главе под названием «Педагогические и методические основы модернизации переподготовки образования» находят своё отражение цель, сущность и содержание переподготовки учителей, анализируется научно-педагогическая и методическая литература по проблеме исследования, а также изучается состояние работы по исследуемой теме. Здесь же дается описание констатирующего эксперимента, проведенного с учителями по переподготовке образования. Указаны цель, задачи и пути организации эксперимента.

II глава, охватывающая пять параграфов, называется «Возможности и пути модернизации переподготовки образования». В этой главе рассматриваются принципы и требования, предъявляемые к переподготовке педагогических кадров, возможности усовершенствования содержания переподготовки педагогических кадров на модульных основах, которые учитывают познавательные и функциональные цели обучения. Отмечается, что модульные программы, развивающие познание, составляются с целью формирования системы фундаментальных знаний у учителей. В этой главе также указываются эффективные пути переподготовки кадров.

Здесь даётся описание обучающего эксперимента, проведенного по модульным программам, указываются цель, задачи и организация проведения.Эксперимент проводится по программе, составленной автором диссертации.

Далее дается описание контрольного эксперимента и проводится сравнительный анализ констатирующего и обучающего экспериментов. Результаты эксперимента подтвердили эффективность предлагаемой модели по переподготовке педагогов для дошкольных образовательных учреждений.

В конце диссертации представлены общие выводы и рекомендации, полученные на основе проведенного исследования, а также дан список используемой литературы в процессе исследования.

**Gurbanova L.G.**

**Influence of modernization of retraining of education on the training of pedagogical personnel**

**SUMMARY**

The thesis consists of an introduction, two chapters, nine paragraphs, a conclusion and a list of used literature.

In the introduction, the relevance of the study is substantiated, the purpose and hypothesis of the topic, the object and the subject of the research, its scientific and practical implications are determined, the scientific positions and results obtained for defense are justified.

In the first chapter, entitled "Pedagogical and methodological foundations for the modernization of the retraining of education", the goal, essence and content of teacher training is reflected, scientific-pedagogical and methodical literature on the research problem is analyzed, and the status of the work on the topic is studied. Here is given a description of the ascertaining experiment, conducted with teachers on retraining education. The goal, tasks and ways of organizing the experiment are indicated.

Chapter II, covering five paragraphs, is called "Opportunities and Ways of Modernization of Retraining Education". This chapter examines the principles and requirements of training teachers, the possibility of improving the content of retraining of pedagogical staff on a modular basis that takes cognitive and functional learning objectives into account. It is noted that modular programs developing cognition are compiled with the aim of forming a system of fundamental knowledge for teachers. This chapter also indicates effective ways to retrain staff.

Here is a description of the training experiment conducted on modular programs, the goal, tasks and organization of the conduct are indicated. The experiment is conducted according to a program compiled by the author of the dissertation. Next, a description of the control experiment is given and a comparative analysis of the ascertained and training experiments is carried out. The results of the experiment confirmed the effectiveness of the proposed model for the retraining of teachers for pre-school educational institutions. At the end of the dissertation, the general conclusions and recommendations obtained on the basis of the research carried out are presented, and a list of the literature used in the study is given.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЛАЛА КУРБАН гызы КУРБАНОВА**

# ВЛИЯНИЕ МОДЕРНИЗАЦИИ ПЕРЕПОДГОТОВКИ ОБРАЗОВАНИЯ НА ПОДГОТОВКУ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

**5804.01 – общая педагогика, история педагогики и образования**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени**
**доктора философии по педагогике**

**БАКУ – 2017**